**VƏLİ ƏLİYEV**
*velieliyev1963@hotmail.com*
*Naxçıvan Dövlət Universiteti*

# MÜƏLLİMİN PEŞƏKARLIĞININ ARTIRILMASINDA METODİKİ İŞİN ROLU

*Məqalədə müəllimin peşəkarlığının artırılmasında metodiki işin rolu araşdırılmışdır. Bu zaman müəyyən olunmuşdur ki, müasir şəraitdə müəllimin peşə ustalığının artırılması şagirdlərin keyfiyyətli təhsil almalarına müsbət təsir göstərmişdir. Bu səbəbdən müəllimin təkmilləşmə sistemi yenilənməli və inkişaf etdirilməlidir. Çünki metodiki iş təlim-tərbiyənin keyfiyyətini və təhsil prosesini idarə edən vacib faktorlardan biridir.*

***Açar sözlər:*** *Müəllim, metodiki iş, məktəb, sinif, şagird*

Müasir şəraitdə məktəbin əsas vəzifəsi şagird şəxsiyyətinin inkişafına kömək edən təhsil mühiti yaratmaqdır. Bu məsələnin həllində isə pedaqoji kadrların peşə səriştəliliyi də əhəmiyyətli rol oynayır. Peşə və şəxsi keyfiyyətlərin toplusu olan peşə səriştəliliyi pedaqoji fəaliyyətini yerinə yetirmək üçün müəllimin nəzəri və praktiki hazırlığıdır və pedaqoji ustalığını müəyyən edir. Səriştəli müəllim pedaqoji fəaliyyətini yüksək səviyyədə qurur və şagirdlərinin təlim-tərbiyəsində stabil nəticələr əldə edir. Müəllimin peşə səriştəliliyinin inkişaf etdirilməsi onun pedaqoji innovasiyaları qəbul edə bilməsi, dəyişən pedaqoji mühitə uyğunlaşa bilməsi qabiliyyətlərinin formalaşdırılmasıdır.

Qeyd edək ki, müasir təhsil sistemində baş verən dəyişikliklər müəllimin təkmilləşməsini, peşəkarlığının yüksəlməsini tələb edir. Çünki yalnız müstəqil düşünən, öz fəaliyyətinin nəticələrini əvvəlcədən görə bilən, təhsil prosesini modelləşdirən müəllim qarşıya qoyulmuş məqsədə çatmağın qarantisi ola bilər.

Onu da qeyd edək ki, müəllim özünün pedaqoji təcrübəsini aşağıdakı müxtəlif istiqamətlərdə təkmilləşdirə bilər:

1. Peşə sahəsində;
2. Tədrisin metodikası sahəsində;
3. Pedaqoji-psixologiya sahəsində [1, s.87].

Metodiki iş müəllimi inkişaf etdirən peşə mühitinin formalaşmasına yönəldilməlidir. Metodiki işin vəzifəsi pedaqoji kollektivin və şagirdlərin potensialını maksimum dərəcədə reallaşdırmağa imkan verən təhsil mühitini yaratmaqdır. Müəllimin qarşısında qoyulan müasir tələbləri nəzərə alaraq, məktəb müəllimin peşəkarlığının artırılmasının aşağıdakı yollarını müəyyən edir:

1. Metodiki birləşmələrdə, yaradıcı və ya problem qruplarında iş;
2. Müəllimin innovativ fəaliyyəti;
3. Peşə ustalığı müsabiqələrində, ustad dərslərində, forum, festivallarda iştirakı;
4. Şəxsi pedaqoji təcrübənin ümumiləşdirilməsi və yayılması;
5. Müəllimlərin attestasiyası, ixtisasının artırılması;
6. Fəal iş formaları ilə peşə səriştəliliyinin artırılması (3, s.141).

Xüsusən də müəllimlərin inkişaf edən peşə mühitinin formalaşmasında onlarla keçirilən təlimlər mühüm rol oynayır. Məktəbdə öyrədici seminarların, təlimlərin keçirilməsi vacibdir. Seminarlar öyrənənin ədəbiyyatla müstəqil iş üzərində qurulmuş nəzəri məşğələ formasıdır, geniş öyrədici işdir. Seminarlarda iş zamanı pedaqoji kollektiv toplanmış materialları ümumiləşdirir və

öyrənilən məsələlərə yeni yanaşmaları qəbul edir. Seminarların sonunda "dəyirmi masa"nın keçirilməsi lazımdır.

Hal-hazırda müasir müəllimlər, keçirilən dərslərin keyfiyyətini aşağıdakı göstəricilərə görə qiymətləndirirlər:

1. Şagirdlərin yaş və fərdi imkanlarına uyğunluq;
2. Şagird işlərinin təşkili formaları;
3. Şagirdlərin həyat fəaliyyətləri ilə əlaqənin olması;
4. Yenilik;
5. Praktiki fəaliyyətin nəzəri əsaslandırılması.

Qeyd edək ki, seminar-praktikumlar müəllimlərin bilik və bacarıqlarını zənginləşdirən effektiv iş formasıdır. Bu, eyni zamanda biliklərin sistemləşdirilməsi və təkmilləşdirilməsi üzrə təlim fəaliyyəti, bacarıqların formalaşması üzrə iş və məlumat əldə etməyin mənbəyidir. Bir sözlə, bu, həm söz (iştirakçıların çıxışları), həm fəaliyyət (seminarda müxtəlif praktiki məşğələlərin keçirilməsi), seminarın mövzusu üzrə əyani nümayiş, həm də pedaqoji təhlildir. Eləcə də seminarın gedişində pedaqoji təcrübənin yayılması məsələləri müzakirə olunur. Bu səbəbdən, məktəbdə aparılan metodiki işin fəal forması kimi seminar-praktikumların keçirilməsinə böyük əhəmiyyət veririk.

Qeyd olunmalıdır ki, müasir dünyada sosial-iqtisadi və elmi-texniki inkişafın dinamikası müəllimlərin yeni informasiya texnologiyalarını bilmələrini qabarıq şəkildə aktuallaşdırır. Bu baxımdan, müəllimin pedaqoji fəaliyyətinə olan vacib tələblərdən biri informasiya-kommunikasiya texnologiyalarını dərindən mənimsəməsidir. Bu məqsədlə, məktəbimizdə "Müxtəlif fənlərin tədrisində İKT-nin tətbiqi" üzrə seminar-praktikumlar keçirilir. Bunun nəticəsidir ki, müəllimlərimiz sinif təşkilat saatları, valideyn iclasları, metodiki birləşmələrdə, pedaqoji şurada çıxışlarını İKT-dən geniş istifadə etməklə təşkil edirlər.

Onu da qeyd edək ki, peşəkarlığın artmasında özünütəhsilin də rolu böyükdür. Özünütəhsil sosial təcrübələrin mənimsənilməsinin keyfiyyətcə yeni formasıdır. Müəllimi özünütəhsilə təhrik edən ehtiyaclar, motivlər aşağıdakılar ola bilər:

1. Dərsə, valideyn iclasına, sinif saatına, məktəb tədbirinə, olimpiadaya hazırlaşan müəllim yeni məlumatlar axtarışına ehtiyac duyur;

2. Müəllimlik yaradıcı peşədir. Yenilik axtarışında olan müəllim işini daha maraqlı və canlı etməyə çalışır. Başqalarını öyrədən müəllim ətrafında olanlardan daha çox bilməlidir. Cəmiyyətin həyatında baş verən dəyişikliklər müəllimi daha çox öyrənməyə məcbur edir;

3. İndiki dövrdə sayılan, seçilən müəllim daha böyük nüfuza malikdir. Yaxşı müəllim olmaq zərurəti müəllimi öz üzərində daha çox işləməyə məcbur edir. Müəllim əməyinin qiymətləndirilməsi, müxtəlif adların, təltiflərin verilməsi müəllimin ustalığından asılıdır [2, s.6].

Daha dəqiq desək, yalnız bilik, bacarıqların təkmilləşməsi yolu ilə bunlara nail olmaq mümkündür. Müəllim bu gün özünütəhsilin və təkmilləşmənin internet resursları və texnologiyalar vasitəsilə artırılmasının forma və üsullarından istifadə etməlidir.

Qeyd edək ki, hər gün öyrədən müəllim daim öyrənməlidir. Bu işdə isə özünütəhsil müəllimin peşə fəaliyyətinin vacib şərtidir. Müəllimin peşə özünütəkmilləşdirmə prosesində innovativ fəaliyyəti mühüm rol oynayır. İnnovasiyalara hazırlıq onun peşə inkişafının vacib şərtidir. Bu səbəbdən innovativ proseslərin iştirakçılarının motivasiyası və stimullaşdınlması sistemini yaratmaq; innovasiyaları tətbiq edən müəllimlərin fəaliyyətinin effektli metodiki təşkilini təmin etmək məktəbdə təşkil olunan metodiki işin əsas hissəsidir.

Qeyd edək ki, yeni pedaqoji ideyaları sınaqdan keçirmək məqsədilə müvəqqəti yaradıcı qruplar təşkil etmək məktəbdə aparılan metodiki işin fəal formalarından sayılır. Məktəbin, eləcə

də metodiki birləşmə üzvlərinin metodiki mövzuları üzrə problemlərin həlli üçün yaradıcı qruplar təşkil olunur. Pedaqoji şuranın iclaslarında həmin qruplar layihələrlə çıxış edirlər. Bütün kollektiv həmin layihələrin müzakirəsində fəal iştirak edir.

Həmçinin həmkarlarının qabaqcıl təcrübə dərslərinin dinlənilməsi və təhlili, ustad dərslərdə iştirak etməsi müəllimin peşəkarlığını artırır. Ona görə də müəllim həmkarlarının dərslərini dinləməli, onların fəaliyyətini təhlil etməyi öyrənməlidir. "Açıq dərs"ləri dinləyən müəllimlər yeni mövzunun öyrənilməsi zamanı məntiqi ardıcıllığa, şagirdlərin yaş xüsusiyyətlərinin nəzərə alınmasına, fəaliyyət növlərinin necə növbələşməsinə, tədqiqat vərdişlərinin inkişafına, müəllim-şagird əməkdaşlığının necə inkişaf etməsinə fikir verməlidirlər. Müəllimin öz dərsinin təhlili də vacibdir: işindəki nöqsanları görür, onu aradan qaldırmağa çalışır. Öz fəaliyyətinin təhlili pedaqoji təcrübənin dərk olunması prosesi olub işdə olan çətinliklərin aradan qaldırılması, özünütəkmilləşdirməyin stimuludur. Müəllim fəaliyyətinin özünütəhlil bacarıqlarını artırmaq üçün məqsədyönlü metodiki işin aparılması vacibdir.

Onu da qeyd edək ki, müəllimin portfoliosu metodiki işin innovativ forması olub, onun peşəkarlığının qiymətləndirilməsi metodlarından biridir. Portfolio müəllimin peşə səriştəliliyinin qiymətləndirilməsi üçün praktiki fəaliyyətinin ən əhəmiyyətli sayılan nəticələrini nümayiş etdirir. Yalnız fəaliyyətinin nəticələrini deyil, eləcə də əvvəlki nəticələrlə müqayisədə inkişafını göstərir. Hər bir metodiki birləşmənin elektron qovluğu olmalı və fənn müəllimlərinin özünütəkmilləşdirmək üçün metodiki mövzusu üzrə gördüyü işlər, təkmilləşmə kursları, iş təcrübəsinin ümumiləşdirilməsi və təqdimatı, şagirdlərinin müəllimin peşəkarlığını təsdiq edən nailiyyətləri və s. haqqında məlumatlar bu qovluqda öz əksini tapmalıdır.

Sonda onu qeyd edək ki, müasir şərtlərdə müəllimin fəal həyati mövqeyi, peşə ustalığının artırılması şagirdlərin keyfiyyətli təhsil almalarının qarantıdır. Bu səbəbdən müəllimin təkmilləşmə sistemi yenilənməli, inkişaf etdirilməli və işlədiyi təhsil müəssisəsində öyrədilməsi həyata keçirilməlidir. Metodiki iş təlim və tərbiyənin keyfiyyətinə, təhsil müəssisəsinin işinin son nəticələrinə əsaslı təsir göstərə bilir, onu təhsil prosesini idarə edən vacib faktor kimi qeyd etmək olar.

## ƏDƏBİYYAT


1. Cəfərov H.R. Naxçıvanda təhsil: inkişaf yolu və imkanları. Bakı: 2011. "Elm və təhsil" nəşriyyatı, 544 s.
2. Xəlilov T.F. XIX əsrin sonu, XX əsrin əvvəllərində Naxçıvanda maarifin səviyyəsi. Akademik Bakış Dergisi. Kırgızistan, Celalabat: 2013, sayı 36, s.1-7
3. Talıbov Y.R., Sadıqov F.B., Quliyev S.M. Azərbaycanda məktəb və pedaqoji fikir tarixi. Bakı: 2000. Ünsiyyət, 513 s.